# 400 çadırla qurulan Dünya Dövləti - Osmanlı İmperatorluğu



Elşən Mirişli
Gəncə şəhəri, tarixçi

(əvvəli ötən sayımızda)

### Sultan I İbrahim

*Sultan I İbrahim 18-ci Osmanlı padşahı və 97-ci İslam xəlifəsidir.Hakimiyyət illəri 9 fevral 1640-8 avqust 1648-ci illərdir. Sultan İbrahimin 8 il davam edən səltənəti böyük qardaşı IV Muradın hakimiyyəti ilə müqayisədə daha sakit keçmişdir.Səltənətinin ilk 4 ili Sədrəzəm Kəmankeş Qara Mustafa Paşanın olduqca sərt və tutumlu siyasəti ilə sülh və bolluq içində keçmişdir.*

*Malta gəmilərinin türk ticarət gəmilərinə hücum etməsindən qəzəblənən sultan, quldurların ən böyük sığınacağı olan Krit adasını fəth etmək üçün səfər elan etdi.20 iyun 1645-ci il tarixində Saqqız adasından dənizə açılan Osmanlı İmperatorluq donanması 17 iyul tarixində Krit adasının Hanya limanını fəth etdi.Bu işğal Avropada böyük əks-səda doğurdu.Hanya qalasına türk qarnizon komandanı təyin olunan Dəli Hüseyn Paşa irəliləyərək Resmo qalasını ələ keçirdi.*

### IV Mehmed (Ovçu Mehmed)

19-cu Osmanlı padşahı və 98-ci İslam xəlifəsidir.Hakimiyyəti illəri 8 avqust 1648-8 noyabr 1687-ci illlərdir. Atasının taxtdan devrilməsi nəticəsində 1648-ci ildə 6 yaşında sultan elan edildi.Tez-tez ova çıxması ona ovçu ləqəbini qazandırmışdır. 39 illik səltənəti ilə I Süleymandan sonra ən uzun müddətli hakimiyyəti ilə seçilir.

### Köprülü Mehmed Paşa (d.1578- ö 31 oktyabr 1661)

Köprülü Mehmed Paşa 15 sentyabr 1656-31 oktyabr 1661-ci illərdə Osmanlı İmperatorluğunun sədrəzəmi idi. Köprülü Mehmed Paşanın sədrəzəm olarkən Osmanlı imperatorluğu içindən çürüməkdəydi.Sosial ədalət artıq pozulmuşdu. Osmanlı İmperatorluğunun bütün Avropanı xərac verməyə məcbur etdiyi və sümürdüyü o parlaq dövrlər artıq geridə qalmışdı. Rüşvət, oğurluq, yaltaqlıq başdan-başa ölkəni çulğamışdı. Məmurlar rüşvətə satılırdılar. Kim daha çox pul verirdisə valiliklərə onlar atılırdılar. Rüşvətin belə ayaq açdığı bir zamanda pulla vəzifəyə keçənlər verdikləri pulun əvəzini min qat çıxarmaq üçün xalqı qəddarcasına soyurdular. Dövləti ən çox xocalar və saray qadınları idarə edirdilər.Qərbdəki texnika da durmadan inkişafdaydı. Xalqı sümürənlər və dini sözləri gəlirləri üçün dayaq edənlər hər bir yeniliyə "gavur icadı" deyib baltalayırdılar.

Taxta gətirilənləri tez-tez dəyişirdilər, hətta bir gündə taxta iki nəfər təyin edirdilər.

Bu zaman Osmanlı taxtında 14 yaşında olan Ovçu Mehmed oturmuşdu.Osmanlı taxtına 6 yaşında çıxarılan Ovçu Mehmed həm yaşının kiçikliyi,həm də bütün vaxtını ovçuluqda keçirdiyi üçün dövləti saray qadınları idarə edirdilər.

Köprülü Mehmed Paşa Osmanlı imperatorluğuna ölkənin çox ağır vaxtında,78 yaşında sədrəzəmliyə gətirilmişdi.O,ölkəni bürümüş xəstəliyin köklərini bilirdi,bu xəstəliyin müalicəsini də yaxşı anlayırdı.Gözü qaralmış idarə ediciləri ancaq cəza tədbirləri ilə susdururdu.Ölüm tədbirləri ilə nə qədər rüşvətçi,vətən xaini varsa hamısını aradan götürmüşdü.Bu işində heç bir mərhəmət hissinə qapılmamışdı. Ancaq bu şiddətli,enerjili təmizləmə nəticəsində ölkəni gəmirən parazitləri əzmiş və yaxşılığa doğru tədbirlər görmüşdü.

*Digər tərəfdən hərbi sahədə də qələbələr qazandı,Venesiyalıları Egey dənizindən qovdu,əldən çıxmağa bir barmaq qalmış Transilvaniyanı düşmən əlindən qurtardı.*

*5 il sədrəzəm olduqdan sonra,83 yaşında Ədirnədə həyata gözlərini yummuşdur.Ölürkən sədrəzəmliyi böyük oğlu Köprülü Fazil Ahmed Paşaya vəsiyyət etmişdir.*

### Köprülü Fazil Ahmed Paşa

Köprülü Fazil Ahmed Paşa 1 noyabr 1661-3 noyabr1676-cı illərdə Osmanlı İmperatorluğunun sədrəzəmi idi.1635-ci ildə Amasiyanın Vəzirköprü qəsəbəsində dünyaya gəlmişdi.Köprülü Mehmed Paşanın oğludur.

İyirmi altı yaşında sədrəzəmliyə keçən Köprülü Fazil Ahmed Paşa öz dövrünün sayılan alimlərindəndir.Çox köklü bir təhsil görmüşdü. İçindən çürüməkdə olan imperatorluğu qurtarmaq üçün atası Köprülü Mehmed Paşanın getdiyi yolla getmiş və bu yolu özünə rəhbər seçmişdi.Atasının cəza tədbirlərini davam etdirmişdi.Bu tədbirlə ağıl, zəka da birləşmişdi.

*Ölkəni bir qurd kimi içindən yeyən rüşvət, dini istismar, rəqabət, tüfeylilik və cahillik kimi xəstəlikləri daha dərindən bildiyi üçün atasının yolunu tutmuşdu.Sərt tədbirlərə əl atmış,ən kiçik bir səhfi edamla cəzalandırmışdı.Çünki onlar ancaq bu dildən anlayır və qorxurdular.*

Hərbi və siyasət aləmində də böyük qələbələri olmuşdu.Uyvar qalası 1573-1581-ci illərdə Slovakiyada Osmanlı ordularından müdafiə məqsədi ilə inşa edilmişdir. Qala İtalyan memar Ottavio Giulio Baldigara tərəfindən 6 uclu ulduz formasında inşa edilmişdi. Uyvar qalası Slovakiyanın Nove Zamky şəhərinin əski adıdır.1663-cü ildə IV Mehmedin hakimiyyəti dövründə Köprülü Fazil Ahmed Paşanın Osmanlı zərbə ordusu qalanı ələ keçirdi.Avstriya Vasvar Anlaşması ilə qalanı Osmanlılara vermək məcburiyyətində qaldı.Qala və qalanın ətrafındakı şəhər Osmanlı Türkləri tərəfindən Uyvar Əyaləti olaraq təşkil edildi.Qala 22 il boyunca Osmanlıların əlində qaldı.

Köprülü Fazil Ahmed Paşa 4 iyun 1672-ci ildə Lehistana səfər elan etdi.Səfər əsnasında bir neçə önəmli qala ələ keçirildi. Nəticədə 18 oktyabr 1672-ci il tarixində Bucaş sülhü imzalandı.Sülh şərtlərinə görə, Lehistan Podolya bölgəsini itirdi, Ukrayna Osmanlılaların təyinatı ilə Doroşenkoya verildi və Lehistan Krımdan başqa Osmanlılara da illlik 220 min dukat qızıl vergi verməli idi. Köprülü Fazil Ahmed Paşa qanuni olaraq Slovakiyanı Osmanlı İmperatorluğuna qatmışdı.Lehistanı (Polşa) da tutaraq öz dövlətinə qatmışdı.Beləliklə,Osmanlı İmperatorluğunu Qərbi və Orta Avropanın mütləq hakimi etmişdi.Kiritin Kandiye qalası da onu zamanında zəbt edilmişdi. Kirit səfərində ordunun başında özü durmuşdu.

O illərdə gündəmdə olan əsas məsələlərdən biri də Krit məsələsi idi.Xüsusilə də,illərdir mühasirədə saxlanılan Kandiye qalası alınmalı idi. Nəhayət,15 may 1666-cı il tarixində Köprülü Fazil Ahmed Paşa Krit səfərinə çıxdı.Kandiye qalası önlərinə toplanan Osmanlı ordusunun sayı 70 minə çatdı.Bu əsnada Misirdən gələn 20 döyüş gəmisi ilə Arslan Mustafa Paşa idarəsindəki Osmanlı donanması da bu səfərə qatıldı.Mühasirə 26 may 1667-ci il tarixində başladı.*Venesiya admiralı Morosinin qalanın müdafiəsinə qatılmasıyla döyüşlər şiddətləndi.Venesiyalılara Papa və Malta donanmaları da dəstək verdi.Bütün il davam edən mühasirə qış aylarında qaldırıldı.Növbəti ilin yazında Misirdən gələn gəmilərin də yardımıyla 1668-ci ilin iyununda mühasirə yenidən başladı.Bu əsnada venesiyalılar padşaha elçi göndərərək sülh istəklərini bildirdilər. IV Mehmed isə sədrəzəmə yollladığı fərmanda mühasirənin bu il nəticə verməsini əmr etmiş, növbəti il mühasirənin mümkün olmadığını yazmışdır.*




Köprülü Fazil Ahmed Paşa 1668-ci ilin qışınıda səngərdə keçirdi və növbəti ilin iyununda Kandiye qalası üçüncü dəfə mühasirəyə alındı. Nəhayət, venesiyalılar qalanı təslim etməyə məcbur oldular.Bir neçə gün davam edən müzakirələrin ardından 6 sentyabr 1669-cu ildə 18 maddəlik təslim şərtləri müəyyən olundu.Bəzi kiçik qalalar istisna olmaqla, Kandiye qalası ilə birlikdə bütün Krit adası təslim edildi,venesiyalılar xərac ödəməyi və əsirləri geri qaytarmağı qəbul etdi. Kandiye qalasının açarları Köprülü Fazil Ahmed Paşaya göndərildi.Beləliklə,təxminən 50 ildir davam edən Krit məsələsi başa çatdı və ada ələ keçirildi. O qışı Kritdə keçirən Köprülü Fazil Ahmed Paşa 4 il qaldığı adadan ayrılaraq 1 iyul 1670-ci il tarixində Ədirnəyə gəldi. İllərlə sürən səngər həyatı səhhətini pozmuşdu, xəstələnərək İstanbula qayıtmış, 3 noyabr 1676-cı ildə İstanbulda ölmüşdü.Sədrəzəmliyi 15 il 4 gün sürmüşdü.Divanyolundakı Köprülü Cami türbəsində,atasının yanında basdırılmışdır.Vəfatının ardından 1000 kisə qızıl axcası dövlət xəzinəsinə alındı.

### Osmanlı İmperatorluğunda Maliyyə işləri

*İlk dəfə Orxan bəy zamanında (1324-1360) axca adı ilə gümüş sikkələr basıldı.Qızıl sikkə ilk dəfə Fateh II Mehmed zamanında basıldı.*

*Osmanlı dövlətinin ayidatı bunlardan ibarət idi:*

*1.-müsəlmanlardan alınan uşr və heyvan vergisi (maliyyat).*

*2.-xristian və yəhudilərdən alınan xərac və cizyə.*

*3.-gömrük,mədən gəlirləri.*

*4.-tabe bəyliklərin yolladığı vergilər və hədiyyələr.*

*Dövlətin ən böyük məsrəfi kapıqulu əsgərlərinə və alimlərə verilən maaşlar idi.*

(ardı var)

*İyirmi altı yaşında sədrəzəmliyə keçən Köprülü Fazil Ahmed Paşa öz dövrünün sayılan alimlərindəndir.Çox köklü bir təhsil görmüşdü. İçindən çürüməkdə olan imperatorluğu qurtarmaq üçün atası Köprülü Mehmed Paşanın getdiyi yolla getmiş və bu yolu özünə rəhbər seçmişdi.Atasının cəza tədbirlərini davam etdirmişdi.Bu tədbirlə ağıl, zəka da birləşmişdi*